● Şəhidlər ölməz, Vətən bölünməz!

# Xalqımızın şərəf tarixinə adını yazdı



**Dilemma qarşısında qalmışam. Nədən başlayacağımı bilmirəm. Bəlkə beli bükülüb, qaməti əyilmiş atanın dağı-daşı yandıran ahından, naləsindən başlayım, ana bətnindəykən atasının şəhid xəbərini duyub ürəyi qarsımış, dünyanın gedişindən-gəlişindən xəbərsiz, heç vaxt nəfəsinin hərarətinə isinib, nəvazişini duymayacağı, ata qollarının arasında uyumayacaq bir körpənin - Kamranın qəmli baxışlarından yazım? Yoxsa, "Ölümü oğlumun gəlişi qədər səbirsizliklə gözləyirəm", - deyən ananın ürəyi param-parça edən qəmli və lal baxışlarından danışım?**

Bəlkə, "Mən qəhrəman qızı olmaq istəmirəm. Hər gün yanımda olan, hər dərdimə yanan, əlimdən tutub məni məktəbə aparan, vətənini sevdiyi qədər də məni sevən Kamranın qızı olmaq istəyirəm", - deyən Aydanın ata həsrətində başlayım? Bəlkə də "Kamranım cənnətə gedən gündən allı-güllü paltarlarımı qara hicaba dəyişmişəm", - deyən yarını itirdiyindən ürəyi yara bağlamış Şəhla xanımın ürək dağlayan, yarımçıq qalmış sevgi dastanından yazsam daha yaxşıdır!..

44 günlük Vətən müharibəsində qanı ilə qəhrəmanlıq dastanı yazanlardan, canı ilə millətə şərəf, vətənə azadlıq bəxş edənlərdən biri, "Qarabağ" ordenli, şəhid baş leytenant Kamran Kazımovun Zabratdakı evində olduğum gündən fikirlərim qarışıb. Xəyalım məni Kamran Kazımovun Zəfər yürüşündə çıxdığı Kəlbəcər aşırımlarına aparıb. İzini Füzulidə, azadlığı uğrunda canını qoyduğu Cəbrayılda axtarmışam.

Qanı ilə vətənin şərəf tarixinə öz adını yazan bir qəhrəman haqqında söz seçməyəcəm. Bilirəm ki, mənim yazacaqlarım onun silahı ilə yazdıqlarının yanında çox kiçik olacaq. O, düşmənə tuşlanan "dəmir yumruğ"un bir parçası, düşmənə qarşı qəzəb idi. Kin idi, nifrət idi.

Söhbət sinəsi ilə əsgərlərini qoruyan, Daxili Qoşunların XTQ-nin şəhid baş leytenantı 30 ilə yaxın bir vaxtdan sonra Qarabağ həsrətimizə son qoyanlardan, doğma torpağı əzəli və əbədi sahiblərinə qaytaranlardan, "Qarabağ" ordeni qazanıb, sevincini yaşamayan şəhid Kamran Kazımovdan gedir. O Kamran Kazımovdan ki, Qarabağa döyüşə göndərilən əsgər və zabitlər seçilərkən, "Kamran sən bizə Bakıda lazımsan" deyən komandirinə etiraz edərək "Komandir, məni bu şərəfdən məhrum etməyin. Ya buradaca öldürün, ya da icazə verin gedim", - deyib israrla Qarabağa göndərilməsini istəmişdi. Döyüşə gedərkən isə, "Ata, toy başladı. Toyumuz mübarək olsun. Məndən narahat olma. Uşaqlar sənə əmanətdir", - demişdi.

Kamran Qurbanənli oğlu Kazımov 1990-cı il dekabrın 7-də Rusiya Federasiyasının Voloqda vilayətinin Vashi rayonunda zabit ailəsində anadan olub. 1997-2008-ci illərdə Xətai rayonunda 63 saylı tam orta məktəbdə təhsil alıb. 2010-2011-ci illərdə müddətli hərbi xidmətdə olan qəhrəmanımız hərbi xidmətini başa vurduqdan sonra ordu sıralarında qalaraq Daxili Qoşunların "N" saylı hərbi hissəsində müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirib. 2012-2014-cü illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil alan Kamran Kazımov leytenant hərbi rütbəsi ilə 2014-cü ildən Daxili Qoşunların sıralarında müxtəlif vəzifələrdə xidmət edib. 2015-ci ildən Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlılarında çalışan leytenant Kamran Kazımov 2018-ci ilin iyul ayından Daxili Qoşunların "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində qrup komandiri təyin edilib. 2020-ci ilin iyul-sentyabr aylarında Müdafiə Nazirliyinin XTQ-nin tərkibində təlimlərində iştirak edən baş leytenant K.Kazımov 2020-ci il sentyabrın 27-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin tərkibində torpaqlarımızın azad olunması uğrunda döyüşlərdə böyük sücaət göstərib. Kamran Kazımov 5 oktyabr 2020-ci ildə Cəbrayılın düşmədən azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Qəhrəman baş leytenant oktyabrın 6-da İkinci Fəxri xiyabanda dəfn edilib.

Döyüş yoldaşı Ramiz Həsənov Kamranla keçdiyi döyüş yolundan danışdıqca gözlərimiz önündə Vətən üçün canını fəda edən şərəfli bir Azərbaycan zabitinin qəhrəmanlıq obrazı canlanır.

"Kamranla sentyabrın 27-dən başlayan Vətən müharibəsində Murovdağ, Füzuli və Cəbrayılın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə birgə döyüş yolu keçmişəm. O, əfsanəvi bir qəhrəman, əsl komandir, zabit şərəfinin qiymətini bilən ləyaqətli, nümunəvi zabit idi. Əsgər üçün özünü ölümə verməkdən çəkinməyən, hər insanın edə bilmədiyini bacaran bir qəhəman idi. Kamranla birlikdə iştirakçısı olduğum son döyüşdən danışmaq istəyirəm. Cəbrayılın düşməndən azad olunması uğrunda gedən döyüş əmri almışdıq. Ağır döyüşlər gedirdi. Düşmənin müqavimətinə baxmayaraq, Kamran qrupumuza yalnız irəli getmək əmrini vermişdi. Özü isə əsl komandir kimi öndə hərəkət edirdi. Cəbrayıla çatmağa az qalmış ermənilərin bir neçə ağır texnikasını, iriçaplı atıcı silahını və böyük bir canlı qüvvəsini məhv etdik. Bir neçə gün çəkən ağır döyüşlərdən sonra Cəbrayıl şəhərinin girişinə yaxınlaşmışdıq. Komandir əsas girişi götürmək üçün qrupa döyüş tapşırığı verdi. Ermənilər ciddi müavimət göstərirdi. Amma bizim qarşımızda duruş gətirmək elə də asan iş deyildi. Düşmən tərəf sayca bizdən çox olsa da, postlarını, texnikalarını qoyub vahimə içində qaçırdılar. Nəhayət, tapşırığı uğurla yerinə yetirib əsas girişi götürə bildik. Hiss edirdik ki, ermənilərin bu məğlubiyyətlə barışmaq niyyətləri yoxdur. Ağır texnikanın gücündən istifadə edən düşmən mobil qruplara bölünərək qəfildən hücuma keçdilər. Məqsəd bizi mühasirəyə salıb məhv etmək idi. Açığını deyim ki, geriyə çəkilmək də asan deyildi. Faktiki mühasirəyə düşmüşdük. Bu zaman Kamran Kazımov özü ilə iriçaplı pulemyotçu Vüqar Cəfərovun qalması, bizə isə geri çəkilmək əmri verdi. Qərar qəti idi. Birmənalı olaraq yerinə yetirilməli idi. Komandir bizim geriyə çəkilməyimizi pulemyot atəşi ilə dəstəkləyirdi. Belə deyək ki, pulemyotçu Vüqar Cəfərovla xilasımız naminə düşmənin diqqətini cəlb etmək üçün özlərini açıq hədəf etmişdilər. K.Kazımovun əmrinə əvvəlcə geri çəkilməli, toparlanıb əks-hücuma keçərək Cəbrayılın girişini götürməliydik. Təbii ki, biz komandirimizin son əmrini yerinə yetirdik. Çox təəssüf ki, bunu o görə bilmədi".

Kamran Kazımovun atası, ehtiyatda olan polkovnik, Qurbanəli Kazımov bizimlə söhbət edərkən göz yaşına hakim ola bilməyib təkcə bunları deyə bildi: "Tanrı kişini vətən qorumaq üçün yaradıb. Oğlumla fəxr edirəm. Mənim Vətən üçün edə bilmədiklərimi Kamran etdi. Döyüşə gedərkən mənə övladlarını, bir də ki, öz əlləri ilə həyətimizdə əkdiyi nar ağaclarını əmanət etdi. İndi ömrümü onlara həsr etmişəm".

Qoruyun onları. Onlar bizlərə torpağı Vətən edən qəhrəmanların əmanətidir. Canlarını torpağına qatan, ruhları azad və xoşbəxt şəhidlərin arzuları həyata vəsiqə qazanaraq cənnət meyvəsi tək göyərəcək. Ölümün qədəri isə şəhidlərin ruhunda əriyib itəcək.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 4 iyun.- S.7.